# MEYAR ƏDƏBİ VƏ MİLLİ DƏYƏRLƏRDİR

**Azərbaycan tənqid və ədəbiyyatşünaslığının görkəmli nümayəndələrindən olan akademik Kamal Talıbzadə həmişə deyirdi ki, hər bir alimin, yazıçının, özünü ziyalı hesab edənin istedadı ilə şəxsiyyəti vəhdət təşkil etməlidir. Akademik İsa Həbibbəylinin pedaqoji, elmi, ictimai fəaliyyətini təhlil edəndə yəqinləşdiririk ki, onun çoxşaxəli fəaliyyətinin arxasında böyük, humanist şəxsiyyəti dayanır. Hər bir şəxsiyyətin sonrakı həyat yolunu, taleyini ilahi başlanğıc müəyyənləşdirsə də, insanın özünün məqsədyönlü fəaliyyəti, işgüzarlığı, mübarizliyi bu məsələdə az rol oynamır.**

Azərbaycan Milli Elmlər Akademiyasının vitse prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, millət vəkili, akademik İsa Həbibbəylinin elmi-ictimai fəaliyyətini izləyəndə bu tale məsələsinin həqiqət olduğunun bir daha şahidi oluruq. Məsələyə bu kontekstdən yanaşsaq, İsa Həbibbəylinin elmi taleyində həm öz işgüzarlığı, mübariz keyfiyyətləri, həm də akademik M.C.Cəfərov, A.Zamanov mühüm rol oynayıb. Onların qayğısı, etimadı və inamı İsa Həbibbəylinin sonrakı ömür yolunu müəyyənləşdirib. Isa Həbibbəyli xüsusən M.C.Cəfərovun həyatında buraxdığı izləri qədirşünaslıqla həmişə yad edir və yaxşı xatırlayır ki, üçüncü kursda oxuyanda gözlənilməz maraqlı hadisə baş verdi. Respublikada ilk dəfə idi ki, elm günləri keçirilirdi. Və elm günləri cərcivəsində üc nəfər tanınmış alimlə APİ-nin Naxcıvan filialinda tələbələrlə görüş kecirildi. Bunlar görkəmli filosof Firudin Köcərli, böyük ədəbiyyatşünas Məmməd Cəfər Cəfərov və tarixci alim Fuad Əliyev idi. Məmməd Cəfər müəllimin təmkinli səslə üzündən oxuduğu mühazirə sanki təndir alovu kimi üzümü qarsdı.

1973-cü ildə İsa Həbibbəyli Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun qiyabi aspi-ranturasına qəbul olunub. 1980-ci ildə müvəffəqiyyətlə müdafiə edərək filologiya elmləri namizədi elmi adına layiq görülüb. Kifayət qədər ciddi, çətin bir mövzuda dissertasiya müdafiə etmək hətta 70-80-ci illərdə də o qədər asan deyildi.

Düzdür, əvvəlki onilliklərdə M.C.Cəfərov, K.Talıbzadə, Ə.Mirəhmədov, M. Əlioğlu kimi kifayət qədər elmi-nəzəri hazırlığı olan tədqiqatçılarımız problemi müxtəlif istiqamətlərdən tədqiqata gətirmiş, Ə.Mirəhmədov, M.Hadinin, M.C.Cəfərov, H.Cavidin, K.Talıbzadə A.Səhhətin, Ə.-Məmmədov A.Şaiqin romantik yaradıcılığını kifayət qədər öyrənmişdilər. Şübhəsiz ki, bu əsərlər XX əsr romantik lirikasının tipologiyasını müəyyənləşdirmək, onun bədii estetik və fəlsəfi məzmununu ədəbiyyatşünaslığa gətirmək üçün ilkin şərtlər və elmi zəmin hazırlamışdı. Lakin hətta 70-80-ci illərə qədər də XX əsrin əvvəllərində romantik lirikanın bədii estetik sistemi bütöv və elmi şəkildə tədqiat predmetinə çevrilməmişdi. Ədəbiyyatşünaslıgimızdakı bu boşluğu İsa Həbibbəyli doldurdu.

Hələ ilk elmi uğurundan görünür ki, o ənənəvi sosioloji təhlil üsulundan uzaqlaşmağa çalışır, milli ədəbiyyatşünaslığımızda yeni bir metodoloji istiqamətin-poetika, sənətkarlıq məsələlərinin önə çəkilməsinin elmi yaradıcılıqda ilk əsasını qo-



yanlardan biri kimi çıxış edir. Bunu romantik lirikamızın ən yaxşı tədqiqatçılarından biri olan Əziz Mirəhmədov vaxtilə belə qiymətləndirib: "Namizədlik əsərində İsa Həbibbəyli yazıçılardan H.Cavid, Ə.Hüseynzadə, M.Hadi, A.Səhhət, A.Şaiq, A.Divanbəyoğlu və başqalarının romantizm üslubunda olan əsərlərinin spesifikası, müştərək və fərqləndirici cəhətlərini açmışdır. Dissertasiyasında müəllif romantizm üçün səciyyəvi ideya-mövzularla bərabər, bədii ifadə, üslub, məcazlar sistemi haqqında da elmimiz üçün yeni, əhəmiyyətli fikirlər ortaya atdı, bəzi mövzularda həmkarları ilə polemika aparır" .

İsa Həbibbəyli daim axtarışda olan, klassik ədəbi irsin dəyərləndirilməsində məsuliyyət hiss edən bir tədqiqatçıdır. Adətən tədqiqatçıları iki qrupa bölürlər; birincisi, daim arxiv materialları üzərində işləyən, ədəbiyyat tarixi materiallarını üzə çıxaran və əldə olunan nəticələri ümumiləşdirərək uğurlu nəticələr qazananlar; ikincisi, hazır ədəbi-tarixi materiallar və arxiv sənədlərinə əsaslanıb nəzəri fikirlər, ümumiləşdirilmiş ədəbi nəticələr söyləyənlər. İsa Həbibbəyli birinci qismə daxil olan ədəbiyyatşünaslardan hesab edilir. O, ədəbiyyatşünaslığımızda Ə.Abid, S.Mümtaz, F.Köçərli, F.Qasımzadə, M.C.Cəfərov, A.Zamanov, K.Talıbzadə ənənələrinin çağdaş ədəbiyyatşünaslığındakı davamçısıdır. Daim yeni ədəbi-tarixi materiallar və arxiv sənədlərin axtarışındadır. Ancaq bu yeni ədəbi faktları o müxtəlif tədqiqat əsərlərində nəzəri təfəkkür süzgəcindən keçirir, ədəbi hadisəni ictimai-sosial hadisə səviyyəsinə yüksəltməyi bacarır. "Romantik lirikanın imkanları" (1984), "Cəlil Məmmədquluzadə: Ədəbi mühiti və müasirləri" (1997) kimi monoqrafiyaları, "Cəlil Məmmədquluzadə" (1987), "Zamanın dühası" (1993), "Xalq şairi Məmməd Araz" (1999) albom-monoqrafiyaları, "Ədəbiyyat nəzəriyyəsi" (1985), "XX əsr Azərbaycan ədəbiyyatı" (1990), "Naxçıvan seçmə kursu" (1996) kimi dərs vəsaitləri təkcə ədəbi-tarixi faktlar və arxiv materialları üzərində gərgin əməyin, intensiv tədqiqatçı axtarışlarının nəticəsi deyil, eyni zamanda geniş, hərtərəfli nəzəri təfəkkürün bəhrəsidir.

İsa Həbibbəyli geniş erudisiyaya, hərtərəfli elmi hazırlığa, zəngin biliyə malik olan ədəbiyyatşünaşünasdır. Onun tədqiqat sferasının mərkəzində böyük ədibimiz C.Məmmədquluzadənin zəngin ədəbi irsi, müasirlərinin həyat və yradıcılıgı dayanır. Belə ki, realist nəsrimizin, dramaturgiyamızın və milli mətbuatımızın bu nəhəng simasının ictimai-ədəbi irsini diqqətlə tədqiq etməklə İsa Həbibbəyli həm də öz ədəbi zövqünü formalaşdırıb, klassik irsi tədqiq etmək və dəyərləndirmək texnologiyalarını öyrənib.

C.Məmmədquluzadənin ictimai məfkurəsinə heyranlıq və onu mükəmməl mənimsəmək İsa Həbibbəylinin həyat yoluna daim işıq salıb, xalqa, vətənə necə xidmət etməyin yollarını öyrədib. Adi bir fəhlənin böyük bir ədəbiyyatşünas, tanınmış ictimai xadim, universitet rektoru, akademik, institut direktoru, AMEA-nın vitse prezidenti səviyyəsinə yüksəlməsində şəxsiyyətin milli məfkurəsi, xalqa, vətənə bağlılığı dayanır. Bu əqidənin nəticəsidir ki, İsa Həbibbəyli həyatını ümummilli liderimiz H.Əliyevin dövlət quruculuğu siyasətinə həsr edib. "Mola Nəsrəddin" ictimai məfkurəsindən H.Əliyev siyasətinə keçidin əsasında dövlətçilik ənənələrinə hörmət, xalqa, dövlətə xidmətin çeşidli yollarına sədaqət dayanır. XX əsrin 70-ci illərindən yeni əsrin ikinci onilliyinə qədər olan zaman məsafəsində o, klassik və müasir ədəbiyyatımızın müxtəlif problemləri ilə bağlı çoxsaylı monoqrafiyalar, elmi və publisistik məqalələr, portret oçerklər yazıb, kitablar praşuralar və biblioqrafik göztəricilər tərtib edib və onların redaktoru olub, ön söz yazıb, dərs vəsaitləri, metodik göstərişlər hazırlayıb.

1982-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasında "Cəlil Məmmədquluzadə mühiti və müasiri" mövzusunda doktorluq dissertasiyasının mövzusu təsdiq olunan İsa Həbibbəyli 1996-cı ildə həmin mövzunu müvəffəqiyyətlə müdafiə edib. Bu mövzunun tədqiqinə demək olar ki, 14 il ömür sərf edib. Halbuki, onun elmi potensialı və işgüzarlığı imkan verirdi ki, dissertasiyanı bir neçə il əvvəl tamamlasın. Ancaq bu isə o daha ciddi yanaşıb, illərlə arxivlərdə, kitabxanalarda axtarışlar aparıb, səbrlə, təmkinlə yazıçının tədqiqatdan kənarda qalan əsərlərini əldə edib, onlar haq-qında maraqlı fikirlər söyləyib, yeni əsərlərini üzə çıxarıb, mükəmməl elmi tər-cümeyi-halını yaradıb.

(Ardı var)

**MƏHƏMMƏDƏLİ MUSTAFAYEV**
filologya elmləri doktoru, professor